# Tarif siyasəti

Azərbaycan Dəmir Yolları” QSC tərəfindən daxili, idxal, ixrac və tranzit daşımaların həyata keçirilməsi üçün şəffaf tarif siyasəti aparılır.

Belə ki, MDB ölkələrinin dəmiryol administrasiyalarının (Dəmir yollarının) 17 fevral 1993-cü ildə qəbul etdikləri Tarif Razılaşmasına əsasən hər il keçirilən Tarif Konfranslarında üzv ölkələr tərəfindən yeni fraxt ili üçün müvafiq dəyişikliklər və əlavələr edilərək, MDB üzvü olan ölkələrin Dəmir Yollarının Beynəlxalq daşınmalar üzrə Tarif Siyasəti hazırlanır. Tarif Konfransında qəbul edilən Tarif Siyasəti əsasında, “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Beynəlxalq Tarif Siyasəti hazırlanır.

MDB üzvü olan ölkələrin Dəmir Yollarının Beynəlxalq Yükdaşımalar üzrə Tarif Siyasəti Beynəlxalq idarələrarası müqavilə sayılır.

Beynəlxalq Tarif Siyasətinin müddəasına(1.2 bəndi) əsasən, MDB üzvü olan ölkələrin hər biri, öz iqtisadi maraqlarına uyğun olaraq, öz Tarif Siyasətində tariflərin artırılması və ya azaldılması üzrə müəyyən dəyişikliklər edə bilər.

Bunları nəzərə alaraq, “ADY” QSC-nin “Tarif siyasəti və marketinq idarəsi” hər ilin sonunda növbəti fraxt ili üçün Tarif Razılaşması İştirakçısı dövlətlərinə Beynəlxalq yükdaşımalarına edilmiş dəyişikliklər və əlavələr barədə məlumat təqdim edir.

Bundan əlavə, “ADY” QSC ilə müqaviləsi olan yük ekspeditorlarının müraciətləri əsasında, yüklər digər alternativ marşrutlardan Azərbaycan ərazisindən keçən marşrutlara və eləcə də alternativ nəqliyyat növlərindən Azərbaycan dəmir yoluna cəlb olunarsa, həmçinin iri həcmli yüklər daşınmaya təqdim edilərsə, daşıma tariflərinə müvafiq güzəştlər verilir.

Tarif siyasəti və Marketinq İdarəsi